# Zamanı xalqının iradəsinə tabe etmiş Lider

*Tarixin axarını dəyişmək yalnız böyük liderlərin taleyinə yazılır. Məhz belə liderlər cəmiyyətlərə yeni nəfəs, dövlətlərə güc, qüdrət qazandırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 22 ildə təkcə müstəqil dövlət olaraq möhkəmlənmədi, həm də regionun siyasi, iqtisadi və hərbi güc mərkəzinə çevrildi. Qarabağ Zəfəri postmüharibə dövründə həyata keçirilən sistemli quruculuq işləri və Böyük Qayıdış strategiyası ölkənin yeni tarixini formalaşdırır. Bu tarix həm də milli iradənin, əzm və siyasi uzaqgörənliyin təntənəsinə çevrilir. Cənab İlham Əliyev zamanı öz xalqının iradəsinə tabe edirərək, Azərbaycanı tarixinin ən parlaq mərhələsinə ucaltdı.*






Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanda formalaşan dövlət idarəçiliyi modelinin əsasını milli maraqlar zəminində prinsipial mövqe, suverenliyə söykənən xarici siyasət və ardıcıl islahatlar təşkil edir. 2003-cü ildə ölkənin ali hakimiyyətinə gələn İlham Əliyev ilk gündən strateji sabitlik, iqtisadi modernizasiya və hərbi potensialın artırılması istiqamətində qərarlı addımlar atdı. "Biz güclü dövlət olmalıyıq" tezisi bu illər ərzində dövlət siyasətinin əsas fəlsəfəsinə çevrildi.

Liderin uzaqgörənliyi xüsusilə Qarabağ məsələsində özünü aydın şəkildə göstərdi. Uzun illər diplomatik cəbhədə aparılan mübarizə, paralel şəkildə gücləndirilən ordu quruculuğu və milli birliyin təşviqi nəticə etibarilə 2020-ci ilin payızında böyük tarixi dönüş yaratdı. Vətən müharibəsində qazanılan qələbə siyasi iradənin, diplomatik səbrin və strateji baxışın sintezindən doğan tarixi nailiyyətdir.

Hələ Vətən müharibəsindən əvvəl işğal altında olan torpaqların azad ediləcəyinə dair verdiyi vədlər ölkə rəhbərinin siyasi iradəsini və xalqın birliyinə olan inamını nümayiş etdirdi. Prezident İlham Əliyev 2018-ci il noyabrın 5-də Ağdam Muğam Mərkəzinin açılışında deyib: "Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq... Biz hamımız yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə bizim torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl biz nümayiş etdirdik ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də". Məhz bu inam və iradə sayəsində Azərbaycan Ordusu XXI əsrin hərbi-siyasi tarixində nadir rast gələnən sürətlə və effektivliklə işğal altındakı əraziləri azad etdi, regionda geosiyasi vəziyyəti fundamental şəkildə dəyişdirdi və beynəlxalq hüququn prinsiplərinə əsaslanan yeni reallıqlar yaratdı.

Postmüharibə dövründə reallaşdırılan Böyük Qayıdış proqramı həyata keçirilən infrastruktur, sosial, mədəni layihələr, dövlətin strateji planlaşdırma və uzunmüddətli inkişaf konsepsiyasını nümayiş etdirir. Ağdamda və digər azad edilmiş bölgələrdə aparılan işlər göstərir ki, Azərbaycan dağıdılmış əraziləri yenidən qurmaqla yanaşı, həm də ictimai yaddaşın, tarixi ədalətin və mədəni identikliyin sistemli şəkildə bərpasına yönəlmiş dərin fəlsəfi konsepsiya həyata keçirir. İşğal dövründə total dağıntılara məruz qalmış Ağdam bu gün strateji inkişaf mərhələsinə qədəm qoyub. 10 may tarixində - Azərbaycan dövlətçilik fəlsəfəsinin memarı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümündə Prezident İlham Əliyevin Ağdama səfəri milli iradənin, siyasi varisliyin və dövlətçilik ənənələrinin davamlılığının parlaq təzahürü kimi tarixə yazıldı. Dövlət başçısı dövlət-xalq birliyinin Vətən müharibəsində qazanılan Zəfərdə rolunu vurğuladı: "İşğal dövründə - 30 il ərzində biz hər gün bu müqəddəs azadlıq gününü yaxınlaşdırırdıq. Hər birimiz öz iş yerində vahid amal uğrunda birləşərək, azadlıq üçün, azadlıq müharibəsi üçün yorulmadan çalışırdıq. Bütün cəmiyyət bir amal uğrunda birləşəndə o cəmiyyət böyük işlərə qadirdir. Heç bir qüvvə xalq qarşısında dura bilməz. Xalqımızın böyüklüyü məhz bundadır". Məhz bu böyüklük Vətən müharibəsində qazanılan Zəfəri bərpa-quruculuq və "Böyük Qayıdış"la daha da dərinləşdirir və institusional yaddaşa çevirir.

Prezidentin Kəngərli kəndində fərdi yaşayış sahələrinin və müasir infrastrukturun yenidən qurulması prosesi ilə yerində tanış olması, eyni zamanda keçmiş məcburi köçkünlərlə birbaşa ünsiyyəti Azərbaycanın humanist və inklüziv inkişaf modelinin təcəssümüdür. Bu, eyni zamanda keçmiş məcburi köçkünlərin layiqli geri dönüş hüququnun praktiki reallaşmasının simvoludur.

Dövlət başçısı səfər çərçivəsində Ağdam rayonunun Xıdırlı kəndinin yaxın aylarda istifadəyə tam hazır olacağını bildirdi. Bu, bütövlükdə postmünaqişə coğrafiyasının mərhələli reinteqrasiyasının göstəricisidir. Paralel olaraq, Ağdam Vağzal Kompleksinin və Muğam Mərkəzinin istifadəyə verilməsi şəhərin mənəvi və mədəni reabilitasiyasının bariz sübutu, həm də mədəni kimliyin rekonstruksiyası, ictimai yaddaşın bərpası prosesinin mühüm elementidir. Bütün bu addımlar sübut edir ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan yenidənqurma sadəcə infrastruktural bərpa deyil, eyni zamanda geosiyasi sabitlik, ərazi bütövlüyü, tarixi ədalətin bərpası üzərində qurulmuş sistemli və çevik idarəetmə modelidir. Beləliklə, Ağdam yaxın gələcəkdə nəinki regional inkişafın avanqardı olacaq, həm də postsovet məkanında reinteqrasiyanın unikal nümunəsinə çevriləcək.

Prezident İlham Əliyev çıxışında vurğuladı ki, Ağdam-Xankəndi-Şuşa avtomobil yolu da tamamilə yenilənir və təkmilləşdirilir. Yolun həm genişləndirilməsi, həm də qısaldılması nəzərdə tutulub, bu da Xankəndi ilə Şuşa arasında məsafəni cəmi 10 dəqiqəyə endirəcək. Bununla yanaşı, Şuşa ilə Xankəndini birləşdirən kanat yolunun çəkilməsi ilə bağlı müzakirələr gedir. Laçın və Kəlbəcərdə də belə layihələrin reallaşdırılması planlaşdırılır. Bu kanat yolları rahatlıqla yanaşı, turizmin inkişafına da böyük töhfə verəcək.

Ağdamda yenidənqurma işlərinin miqyası daha genişdir. Ötən ilin aprel ayında Ağdam Cümə məscidinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov iştirak etdilər. Hazırda Qiyaslı məscidi də bərpa olunur. İmarət kompleksi yenidən qurulub, Xaçınçay su anbarı isə əkin sahələrinin suvarılması üçün fəaliyyətə başlayıb. Bu, əkinçilik potensialının yenidən canlanması və kənd təsərrüfatının inkişafı baxımından mühüm addımdır. Bu mənada, Qarabağda həyata keçirilən quruculuq gələcəyə hesablanmış layihələrdir. Azərbaycanın iqtisadi gücü sayəsində bütün bu layihələr dövlətin daxili resursları hesabına həyata keçirilir. Xarici maliyyə dəstəyi olmadan belə genişmiqyaslı yenidənqurma işlərinin icrası ölkənin iqtisadi dayanıqlılığını və xalqın əməksevərliyini bir daha təsdiqləyir. Bərpaolunan tarixi abidələr, yenidən tikilən şəhərlər, salınan yollar və su anbarları Qarabağın gələcək iqtisadi və sosial inkişafının təməlini təşkil edir. İnşa edilən hər bir obyekt, qurulan hər bir yol Azərbaycan xalqının iradəsinin, Prezidentin verdiyi vədə sadiqliyinin ifadəsidir.

Bu gün insanların azad Qarabağa, doğma torpaqlarına qayıtması, kənd təsərrüfatının, turizmin inkişafı Azərbaycanın azadlıq və dirçəliş yolunun davamıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqı öz torpaqlarında azad yaşamaq haqqını əldə edib və bundan sonra da bu haqqın qorunması üçün bütün gücünü səfərbər edəcək. Bu torpaqlarda yenidən canlanan həyat Azərbaycanın azadlıq mücadiləsinin, xalqın sarsılmaz iradəsinin və dövlətin qətiyyətinin bariz göstəricisidir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**